

# Tələbkar alim, xeyirxah insan

Xalqımız həyatı örnək olan alimlərimizlə hər zaman öyünür, fəxr edir. Elmin zirvəsinə yüksəlmiş say-seçmə aydınlarımız savadı, bacarığı, yüksək elmi potensialı ilə yanaşı elə, xalqa, torpağa bağlılığı ilə də həmişə nəsillərə örnək olmuş, öz əməkləri, zəhmətləri hesabına ucalmışlar. Öz yorulmaz əməyi, zəhməti ilə ziyalılıq zirvəsinə yüksələn alimlərimizdən biri də Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun professoru, tarix elmləri doktoru Bayram Qurbanovdur. Bu günlərdə onun anadan olmasının 90 illiyi tamam olur.

B.Qurbanov 22 mart 1926-cı ildə Azərbaycanın dilbər guşələrindən birində, Qozluçay vadisində, Füzuli rayonunun Saracıq kəndində yoxsul kəndli ailəsində dünyaya göz açmışdı. Savadsızlığın acı dərsləri ilə hər zaman rastlaşan valideynləri ona təhsil verib boya-başa çatdırmaq üçün min bir əziyyətə qatlaşmışdılar. Öz kəndlərində natamam orta məktəbi bitirdikdən sonra 1939-cu ildə Füzuli şəhər Pedaqoji Texnikumuna daxil olmuş, qanlı-qadalı Böyük Vətən Müharibəsinin törətdiyi müdhiş məhrumiyyətlərə dözmüş və 1942-ci ildə təhsilini başa vurmuşdu. Özünün sonralar xatırladığına görə, övladlarını savadlı görmək arzusunda olan valideynlərinin həmin vaxt sevincinin həddi-hüdudu yox imiş.

Pedaqoji məktəbdə təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra Beyləqan rayonunun Dünyamalılar və Əhmədli kəndlərində müəllim işləmiş, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuş, 1945-ci ildə təhsilini davam etdirmək üçün Bakıya gəlmiş və Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. Zəhmətsevərliyi, çalışqanlığı və istedadı ilə professor müəllim heyətinin diqqətini cəlb edən Bayram müəllim 1950-ci ildə universitetdə təhsilini başa vurmuş, hələ tələbə ikən eyni zamanda ikiillik axşam xarici dillər müəllimlər kursunun “Alman dili” ixtisasına da yiyələnmişdir.1949-1953-cü illərdə Bakı şəhəri Pionerlər sarayı nəzdində yaradılmış tarix dərnəyinə rəhbərlik etmiş, Azərbaycan tarixinə dair maraqlı söhbətləri və paytaxtın tarixi abidələri ilə tanışlıq məqsədilə təşkil etdiyi ekskursiyalarla məktəblilərdə vətənpərvərlik hissinin yüksəlməsinə nail olmuşdur.

1951-1953-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun “Azərbaycan tarixi” ixtisası üzrə aspirantı olan Bayram müəllim, 1954-cü ildə “Bakı fəhlələrinin Azərbaycan kəndinə hamilik köməyi (1923-1934-cü illər)” mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. O, Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq bu əsərində cəhalət və yoxsulluq içində yaşayan Azərbaycan kəndinə 20-ci illərdə və 30-cu illərin birinci yarısında Bakı şəhərinin, onun zəhmətkeşlərinin göstərdiyi təmənnasız köməyi — hamilik köməyini hərtərəfli öyrənib dərindən təhlil etmiş, tədqiqat işini 1960-cı ildə kitab şəklində nəşr etdirmişdir. Alim müharibədən sonrakı dövrdə hamilik hərəkatının inkişafını diqqətlə izləmiş, şəhərin kəndə hamilik köməyi tarixinin məktəbini yaratmışdı.

B.Qurbanovun elmi fəaliyyəti 1958-ci ildən ömrünün sonuna kimi (12 fevral 2006-cı il) Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlıdır. O, 47 ildən çox fasiləsiz olaraq A.Bakıxanov adına Tarix İnstitutunda işləyib. Bayram müəllimin 1982-ci ildə nəşr olunmuş “Azərbaycan fəhlə sinfi inkişaf etmiş sosializm yolunda” mövzusunda sanballı kitabı elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Bu kitab onun uzun illər elmi axtarışlarının, böyük zəhmətinin bəhrəsi idi. Kitabda 40-50-ci illərdə Respublika sənayesinin bərpası və inkişafından, yeni sənaye sahələrinin yaradılmasından, yeni məhsulların istehsalından, Sumqayıt, Mingəçevir, Daşkəsən, Neft Daşları kimi sənaye mərkəzlərinin meydana gəlməsindən, elmi-texniki tərəqqidən və s. ətraflı bəhs edilir.

Bu kitab Azərbaycanın yeni şəhərlərinin yaranma tarixinin öyrənilməsi baxımından da olduqca əhəmiyyətlidir. Böyük elmi maraq doğuran və mühüm əhəmiyyət kəsb edən bu monoqrafiya tarix elminə ciddi hədiyyə olmuşdur.

Bayram Qurbanov sözügedən monoqrafiyanı 1983-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu nəzdindəki dissertasiyalar müdafiəsi üzrə İxtisaslaşdırılmış Şurada müdafiə etmiş və tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Sonrakı illərdə səmərəli elmi fəaliyyətinə görə 1991-ci ildə professor elmi adına layiq görülmüşdür.

Alimin bir çox irihəcmli məqalələri respublikada və onun hüdudlarından kənarda məqalələr külliyyatlarında, qəzet və jurnallarda dərc edilmişdir. Bayram müəllim 10 cildli Azərbaycan Sovet Ensiklopediyası üçün də çoxsaylı və biri-birindən dəyərli məqalələr yazmışdır. Azərbaycan fəhlə sinfinin və şəhərin kəndə hamilik köməyi tarixinə dair sanballı tədqiqatları, kollektiv əsərlərdə fəal iştirakı, elmi-populyar yazıları professor B.Qurbanova elmi ictimaiyyətimiz arasında böyük şöhrət gətirmişdir.

Bayram müəllim həm də güclü və son dərəcə ciddi redaktor idi. Belə ki, monoqrafiyaların, sənədlər külliyyatlarının və məqalələr toplularının böyük əksəriyyəti məhz onun redaktorluğu ilə işıq üzü görmüşdür.

Bayram müəllim tərcümə sahəsində də qələmini sınamış, müəyyən uğurlara imza atmışdı. Onun rus dilindən Azərbaycan dilinə tərcümə etdiyi əsərlər 52 çap vərəqindən çoxdur.

Azərbaycan Milli Elmlər Akademiyasında çoxillik fəaliyyəti dövründə Bayram müəllim uzun illər Tarix İnstitutunun dissertasiyalar müdafiəsi üzrə şurasının üzvü olmuş, çoxsaylı dissertasiyalara opponentlik etmiş, monoqrafiya və məqalələrə rəy vermiş, çoxsaylı xeyirxah işlərə öz imzasını atmışdır. Bütün bunlarla yanaşı, uzun illər “Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası)” jurnalının redaksiya heyətinin üzvü olmuş, ictimai əsaslarla bu jurnalın məsul katibi vəzifəsini icra etmiş, İnstitutun Həmkarlar İttifaqı yerli Komitəsinin sədri seçilmişdi. Tez-tez rayon zəhmətkeşləri ilə də görüşmüş, respublika “Bilik” cəmiyyətinin xətti ilə müntəzəm olaraq geniş zəhmətkeş kütlələri qarşısında tariximizin müxtəlif problemlərinə, o cümlədən erməni qəsbkarlarının vətənimizə təcavüzünə həsr olunmuş məruzə və mühazirələrlə çıxışlar etmişdir.

O, müxtəlif illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda, Azərbaycan Dövlət Universitetində və digər ali təhsil müəssisələrində Azərbaycan tarixindən mühazirələr və seçmə kurslar oxumuş, seminar məşğələləri aparmış, tələbələrin diplom işlərinə rəhbərlik etmişdi.

B.Qurbanov respublika elm və mədəniyyətini inkişaf etdirmək sahəsində xidmətlərinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə, uzun illər vicdanlı əməyinə görə isə “Əmək veteranı” medalı ilə təltif edilmiş, Tarix İnstitutunda çoxillik, qüsursuz işinə və elmi nailiyyətlərinə görə tərifnamələrə və digər mükafatlara layiq görülmüşdür.

Bayram müəllim özünə və başqalarına qarşı tələbkar alim, səmimi və qayğıkeş insan, aparıcı mütəxəssis kimi Tarix İnstitutunun kollektivi arasında dərin hörmət və nüfuza malik olmuşdur. Gözəl ailə başçısı kimi cəmiyyətimiz üçün dörd layiqli övlad böyütmüş, zəngin həyat salnaməsini öz əlləri ilə yazmışdır.

**Fəxrəddin NƏRİMANOĞLU,**
**professor.**